# Çanaqqalada Azərbaycan şəhidlərinə xüsusi abidə...

**Məhərrəm Zülfüqarlı:** *"...onlara həmin ərazidə ayrıca abidə qoyulması vacibdir"*

**Türk dünyasının fəxr və qürur hissilə andığı Çanaqqala şəhidlərinin xatirəsi, Türkiyədə olduğu kimi, Azərbaycanda da əziz tutulur. Tarixən bir-birinə arxa-dayaq olan Türkiyə və Azərbaycan qardaşlıq ənənələrinə sadiq qalaraq hər zaman həmrəy olmağı bacarıblar.**

Əsası dünənlərdə qoyulan böyük tarixi ənənə, bağ bu gün də öz möhkəmliyi, monolitliyi ilə diqqəti çəkir.

Çanaqqala savaşında osmanlılarla çiyin-çiyinə işğalçılara qarşı vuruşanlar sırasında Azərbaycan türklərinin, könüllü vətən övladlarının olması da ayrıca bir qürur ünvanıdır.

Qeyd edək ki, Birinci Dünya Müharibəsi dövründə, 1915-1916-cı illər arasında Osmanlı dövləti ilə Antanta dövlətləri - İngiltərə, Fransa, Anzaklar arasında baş verən dəniz və quru döyüşü kimi tarixə düşən Çanaqqala savaşı Osmanlı Türkiyəsinin qələbəsi ilə başa çatıb.

Məlumdur ki, ittifaq dövlətləri Osmanlı dövlətinin paytaxtı İstanbulu alaraq boğazların idarəsini ələ keçirmək, Rusiya ilə etibarlı qida və hərbi ticarət yolu açmaq, alman müttəfiqlərindən birini zəiflətmək məqsədilə ilk hədəf olaraq Çanaqqala boğazına daxil olmuşlar. Ancaq hücumları müvəffəqiyyətsiz olmuş və iki tərəfin də çox ağır itkilər verməsilə İttifaq dövlətləri geri çəkilmişlər. Bu döyüş məhvolma vəziyyətində olan bir ölkənin möhtəşəm qələbəsi kimi əfsanələşib, hər vətəndaşın xatirəsində qalıb. Bir millətin gücünü ortaya çıxararaq nələr edə biləcəyini göstərmiş bu döyüş Türk Qurtuluş Savaşına da təsir edib. Türkiyə Cümhuriyyəti qurulduqdan sonra ingilis və fransız donanmalarının geri çəkilməyə məcbur edildiyi gün, yəni 18 mart Çanaqqala Şəhidlərini Anma Günü olaraq elan edilib. Müttəfiqlər üçün isə bu döyüş əsgəri bacarıqsızlıq və fəlakət simvolu olaraq sayılıb.

Çanaqqala savaşında Osmanlı türkləri ilə yanaşı, Azərbaycan türkləri də iştirak ediblər. "Qardaş qardaşın dar gündə köməyi olmalıdır" ənənəsinə sadiq qalan Azərbaycan türkləri Çanaqqala döyüşünə qatılaraq düşmən qüvvələrə qarşı mübarizə aparıblar.

Tarixi faktlara əsaslansaq, Çanaqqala döyüşündə Türkiyənin 253 min döyüşçüsü ilə yanaşı, 3 minə yaxın azərbaycanlı da şəhid olub.

Onu da qeyd edək ki, Çanaqqala savaşında şəhid olan azərbaycanlıların sayının üç min deyil, daha artıq olmasına dair dəqiqləşdirilməmiş məlumatlara da rast gəlinir.

Məlum olduğu kimi, ümumilikdə, Çanaqqala şəhidlərinə abidə qoyulsa da, burada qəhrəmancasına həlak olmuş azərbaycanlılara ayrıca abidə qoyulmayıb. Şəhidlərin uyuduğu məzarlıqda şəhid azərbaycanlılara aid bir lövhə var.

Bütövlükdə, Çanaqqala şəhidlərinə "Şəhidlər abidəsi" qoyulub. Bu öz yerində. Amma azərbaycanlı şəhidlərə də ayrıca abidənin qoyulması tarixi bir zərurət kimi meydana çıxıb. Dəfələrlə bu məsələ gündəmə gətirilsə də, təəssüf ki, hələ də Çanaqqalada şəhid olan azərbaycanlılara ayrıca abidə qoyulmayıb.

Tarixçi-alim, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, 1915-1916-cı illərdə Çanaqqala savaşında Azərbaycan könüllülərinin iştirakı, 1918-ci ildə Bakının və bölgələrimizin bolşevik-daşnak qaniçənlərindən azad olunmasında mühüm rol oynayan Qafqaz İslam Ordusunun xilaskarlıq missiyası iki qardaş ölkənin bir-birinə verdiyi dəyərin, qardaş dəstəyinin ən parlaq örnəkləridir: "Qafqaz İslam Ordusunun bizə göstərdiyi kömək, verdiyi dəstək unudulmazdır. Çanaqqala döyüşündə iştirak edən azərbaycanlı könüllülərin dəstəyi də böyük qardaşlıq nümunəsidir. Böyük ədibimiz Abdulla Şaiqin qardaşı Yusif Ziya Talıbzadə Çanaqqala savaşında çox böyük qəhrəmanlıqlar, şücaətlər göstərib. Bu onu göstərir ki, qardaş Türkiyə hər zaman bizə dəstək göstərdiyi kimi, Azərbaycan da Türkiyəyə dəstək göstərir. Azərbaycan könüllülərinin Çanaqqala savaşına getməsi, burada düşmənə qarşı vuruşması böyük bir qardaşlıq nümunəsi kimi xatırlanmalıdır. Onu da vurğulayım ki, hətta Hacı Zeynalabdin Tağıyev Çanaqqala döyüşlərində silah-sursat alınması və s. xərclər üçün böyük vəsait ayırıb.



*"Azərbaycan könüllülərinin Çanaqqala savaşına getməsi, burada düşmənə qarşı vuruşması böyük bir qardaşlıq nümunəsi kimi xatırlanmalıdır"*

Baxmayaraq ki, həmin dövrdə Azərbaycan Rusiya imperiyasının tərkibində idi. Bundan başqa, Birinci Dünya Müharibəsində əsir türkləri gətirib Nargin adasında saxlayırdılar. Əsirlərin azad olunmasında da onun böyük rolu olub. Yəni bu onu göstərir ki, daim iki qardaş xalq bir-birinə dəstək olub. Hesab edirəm ki, könüllü olaraq Çanaqqala savaşında iştirak edən və şəhid olan azərbaycanlıların xatirəsinin əbədiləşdirilməsi, onlara həmin ərazidə ayrıca abidə qoyulması vacibdir. Həmçinin, Bakıda Qafqaz İslam Ordusuna abidə ucaldılmalıdır. Bu abidələrin qoyulması ona görə vacibdir ki, qardaş Türkiyə vətəndaşları bu abidəyə baxıb Azərbaycan türklərinin dar gündə onların köməyinə yetdiklərini biləcəklər. Bununla yanaşı, Bakıda Qafqaz İslam Ordusuna abidə qoyulsa, bizim yeni nəsil onların şücaəti, dəstəyi haqqında daha dəqiq məlumata malik olacaq. Bu olduqca vacibdir".

**M.Zülfüqarlı hesab edir ki, onların tarixi qardaşlıq missiyasının bütün nəsillərin yaddaşında qalması üçün bu abidələrin ucaldılması böyük rol oynaya bilər.**

***İradə SARIYEVA***